



<u>Səbuhi Vəliyevin yeni şeirləri Məzahir Əhmədoğlunun təqdimatında</u>

## Ay özü Çaşdı

Sinəsi açıq, yol boyu
Yağışda görmüşdüm səni
Tənha ağaclar qol-boyun
Bağışla, görmüşdüm səni

Gözlədin hava açılar,
Yuvada quş da gözlədi.
Gəlməzə əlacmı olar,
Gözündə yaş da gözlədi.

Xəyalında çiçəklərin
Ləçəkləri pərən-pərən.
Gözün yolda çökdün yerə
Dizində yaş da gözlədi.

Hallanıb cənnət ətrindən
Çay özü daşdı, gözlədi
Ayüzlünün xatirinə
Ay özü çaşdı, gözlədi.

## Bir damcı da düşmədi

Gəldi bulaq başına
Bu yol çınqıllı, daşlı.
Suda əksini görən
Ayın gözü qamaşdı.

Yol boyu yeridikcə
Buz kimi bulaq suyu
Səhəngdən tökülürdü
Zərif çiyinlərinə.

Elə bil bulağın da
Qızda gözü qalmışdı.
"Yox" deyən əndamı tək
Səhəng yırğalanırdı.

Yaxında, lap yaxında,
Bir sevginin odunda
Dəli könül yanırdı.
Yer-göy işıqlanırdı.
Hərdən şimşək-qılıncdan.
Yağış tökürdü, amma,
Bu odun, Közün üstə
Razı deyildi düşə
Səhəngdən birdamcı da.

## O qərib səs

Elə bil tütək çalırdı.
Tel- tel güllər açılırdı.
Tütəyin səsi altında
Göyə əllər açılırdı.

Ruh kimi doldu canına,
Oxşamırdı dağ çayına.
Sanki dağları titrədən
Nə harayı- hayı varmış
Bu boyda göy qübbəsinin
Bir tütəklik boyu varmış

Dünya dəyişdi qəfildən,
Nə ağrı, nə acı qaldı
Kahalardı, ya heyrətdən
Dağın ağzı açıq qaldı?

Uzaqlardan gəlir səsi
Özü xəstə, lap can üstə
Başı üstə sevgilisi
Nə sirdisə, səhərəcən
Pəncərələr açıq qaldı.

## Sirdaşımdı, yaşıdımdı

Yer də, göy də, umur, küsür
Sevgilərə əl açmadan.
Dağlarda qartal da susur,
Sellər-sular dil açmadan.

Bu dünyada nə dəyişər
Əl-qolumuz bulaşmadan.
Yaz mehi bilməz özünü
Tellərinə dolaşmadan.

Hər şeyi olsa da, azdı,
Gözü gülməz gül açmadan.
Çox da yazdı, oyanmazdı
Pəncərəni yel açmadan.

Sirdaşımdı, yaşıdımdı,
Görən halı yaxşıdırmı?
Axıb gedir göz yaşında.
Gülsə, ani gülüşünə
On-on beş yaş az verərəm
öz yaşımdan.
Amma zalım duruşundan
Qosqoca bir kişi olub
Mən özümü öldürərəm
yüz yaşında.

## Vaxt gəlib çatacaq

Payız bağ-bağçaya əlini çəksə,
Xəzan yellərinə dözəmməyəcək
Şirin nəfəslərdən, tər sevgilərdən
Hərə bircə dəfə ölməyəcəksə
Deməli bu dünya düzəlməyəcək.

Qarşıda enişlər-yoxuşlardımı,
Göz yaşları deyir: hələ ümid var,
Tökəcək selləmə yağışlarını
Boş görüş yerinə lay-lay buludlar
Daha bir-birini gözləməyəcək.

Vaxt gəlib çatacaq, şam sönən kimi,
Dilə gəlməyəni gözlər deyəcək.
Sən ilk öpüşlərə qərq olan günü
Ay bulud dalında gizlənməyəcək.

## Gülləsiz ölümlər

Bu meşənin adı qalıb,
Xəzan gəldi, yağmaladı.
Çılpaq-çılpaq ağacları
İtiribdir yaxınların,
doğmaların.
Budaqların əli boşda,
gözü yaşlı.
Burdakı qoşa cığırlar
Görən kimi çağırırlar.

Yamyaşıl, səsli, nəğməli
Tənha ağac da bir yanda.
Meşənin bu halından
Dəli olubdur, dəli.
Yerində döşənib qalıb.
Nə qəribə həyatdır,
Tutub beşəlli qalıb.
Yaxşı ki, salamatdır
Nəfəsi gedib gəlir.

Ətraf qupquru meşə.
Hardansa səda düşər,
Göydən asılı qalar,-
Bu çağlayan bulaq da,
Bu quruyan meşə də
Ömrümüzün baharıdır,
qışıdır,
Gəlimlər, gedimlərdir.
Vaxtsız solub tökülən
Yarpaqlar deyil əsla,
Gülləsiz ölümlərdir.

## Qərib günün işığı

Gəlir yetişir bizə də
Bu dünyanın qərib günü .
Min illərlə yanan ulduz
Bir gecədə sönüb gedir.

Bir qoca oxuyur pəsdən
Ömrü -günü tükənmişdi.
Çəliyindən gələn səslə
Qərib günə söykənmişdi.

Nə səs, nə iz qalasıdır,
Yuyub aparar yağışlar.
Qərib günün balasıdır
Qatarından qalan quşlar.
Quzular da gendən qaçır,
Tapdalamır göy otları.
Küləklərlə qucaqlaşır
Qərib günün buludları.

Həmin gün xalça-nağıllar
Adamın gözündən düşür.
Qəribləşir düzlər, dağlar,
Dilindən, sözündən düşür.

Günəş də çox gec oyanır,
Qol-qanadın aça-aça.
Göyləri bürüyən işıq
Yatıb yuxularda uçan
Uşağın üzündən düşür.

## Neyləsin

Sevib seçdi gözəyarı,
Əhdi yarı, sözü yarı,
Yarı alın yazıları.
Yaz gecəli arzuları
Qışa çıxmadı, neyləsin.

Sanki ömrü yaşamadı,
Yaş üstünə yaş atdılar.
Bəlkə dəmir nişangahdı,
Gözüyumulu daş atdılar,
Boşa çıxmadı, neyləsin.

Zillət günlər düşər yada,
Hərdən qorxar, səksənər də.
Qopub gedərdi dünyadan,
Başa qaxınc səksənində
Yaşı çatmadı, neyləsin.

## Dəniz ayrılığı

Göylərin oyununda,
Dalğaların qoynunda,
Sanki dünya bizimdi,
Dəniz ikimizindi.

Olub keçənlər ki, var
Heç biri dərd olmadı.
Yetişdi tufan vaxtı,
Dalğalar şahə qalxdı,
Sevgimiz qərq olmadı.

Əl-ələydik, üz-üzə,
Gözlərini döydü ki,-
Balıqları üzülən
Bu, o dəniz deyil ki?

Ahından sular yanan,
Balıqların gözüylə
Qərib-qərib boylanan
Bir dəniz axdı getdi
Zərif dodaqlarından.

Ahı tutdu bizi də
Qumluqların üstünə
Sərələndik, tir düşdük.
Bu gəmidən sahilə
Ayrılıqla bir düşdük.

ədalət.- 2022.- 28 may.- S.7.